*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 dekabr 2019-cu il № 97 (2414) Qiyməti 30 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib





*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu əslində Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.*

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan" deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

(Əvvəli 1-ci səhifədə)



Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusunu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin girdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasət yürütmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə çevrilib. Dünya birliyində hörmət və ehtiram ünvanına çevrilən ölkəmiz beynəlxalq aləmdə dostluq, tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqil ölkəyə çevrilib. Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Ümummilli Liderin xatirəsini yad edib

*Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə naziri, nazir müavinləri, baş idarə, idarə və xidmət rəisləri, o cümlədən cəbhəboyu zonada yerləşən birlik və birləşmə komandirləri, həmçinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəisləri və nazirliyin şəxsi heyəti Fəxri xiyabanı ziyarət ediblər. Hərbi qulluqçular ulu öndər Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyub, xatirəsini hörmət və ehtiramla yad ediblər.*





Müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyət boşluğu dövlətçilik üçün böyük təhlükə yaradanda xalq ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Böyük tarixi şəxsiyyətin hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyi labüd iflasdan xilas edildi.

Ümummilli lider Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. XX əsrin 90-cı illərində - Azərbaycanın beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi Heydər Əliyevə görə tanıyırdılar. Onun parlaq dühası və iti zəkası Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsini, beynəlxalq nüfuzunun yüksəlməsini təmin etdi. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

Fəaliyyətinin hər dövründə zamanı əməlləri ilə zənginləşdirən ulu öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin və onun ordusunun yaradılması olub. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən Ümummilli Lider hər zaman milli dövlətçiliyi, vahid komandanlığa tabe olan nizami ordu quruculuğunu və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutub. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı məhz bunun təsdiqidir. Heydər Əliyev öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərdəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixisiyasi təlabatından və genetik potensialından doğulur.

Müstəqilliyin ilk illərində yaradılan ordu yerli müdafiə batalyonları formatında məhəlli xarakter daşıyırdı ki, bu da onun nizami ordu kimi formalaşmasına imkan vermirdi. Böyük tarixi şəxsiyyət bu batalyonların ləğv edilməsini zəruri bildi, vahid komandanlığa tabe olan ordu yaradıldı və formalaşdırıldı. Dahi rəhbərin siyasi kursu ordu quruculuğunda da uğurla davam etdirildiyindən indi Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır.

Azərbaycan Ordusunun döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, müasir hərbi texnika ilə yanaşı, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusunun, beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda əhəmiyyətli bir addım oldu. Nəticədə beynəlxalq təcrübəyə istinad edilməklə güclü, qüdrətli, Azərbaycan Ordusu formalaşdırıldı. Kursant və zabit heyətinin dünyanın ən qabaqcıl hərbi təhsil müəssisələrində hərb sənətinin sirlərinə yiyələnməsi ordumuzun peşəkarlıq səviyyəsinin yüksəlməsinə şərait yaratdı. Azərbaycan Ordusu müəyyən zaman kəsiyində Aprel və Günnüt zəfərlərini qazandı.

Bu gün regionun ən qüdrətli ordusu olan Azərbaycan Ordusu torpaqlarımızı qorumaqla yanaşı, bir sıra ölkələrdə həyata keçirilən sülhməramlı əməliyyatlarda da iştirak edir. Ordu quruculuğunu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirir.

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini uğurla yerinə yetirməyə hazırdır və buna qadirdir. Azərbaycan Ordusunun yaranmasının və Bakının bolşevik işğalından azad edilməsinin 100-cü ildönümü ilə əlaqədar keçirilən paradlar da ordumuzun qüdrətinin təsdiqi oldu.

Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ordusu xalqımızın güvənc yeridir. Fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib və Ümummilli Liderimizin reallaşdırdığı inkişaf konsepsiyası sayəsində iqtisadi, siyasi, hərbi və digər sahələrdə əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

Böyük tarixi şəxsiyyətlər əbədiyyən unudulmur. Ümummilli lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi...

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib

*Dekabrın 11-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2019-cu tədris ilində Azərbaycan Ordusunun hazırlığının yekunlarına dair Müdafiə Nazirliyi Kollegiyasının geniş iclası keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ümummilli lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən, cari il ərzində ordu quruculuğu sahəsində aparılan islahatlar, Azərbaycan Ordusunun döyüş fəaliyyəti, silah və texnika ilə təchizatı, maddi-texniki və tibb təminatı, kadr islahatları, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, həmçinin əldə edilən nailiyyətlər barədə məruzə ilə çıxış edib.

Nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirak etdiyi kollegiya iclasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov 2019-cu ildə xidməti döyüş hazırlığının yekunları və 2020-ci tədris ilində qarşıda duran əsas vəzifələr barədə yekun çıxışı edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən Müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.



General-polkovnik Zakir Həsənov cari ildə həyata keçirilən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2020-ci ildə icra olunacaq fəaliyyətlərlə əlaqədar komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub.

Müdafiə nazirinin əmrinə əsasən, 2019-cu tədris ilində Azərbaycan Ordusunun qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, həmçinin hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələr əldə etmiş hərbi qulluqçular təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

*Nümunəvi xidmət*

# "Bütün sevgilərimiz Vətənlə bağlıdır"

*Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və digər rəhbər şəxslərin hər dəfə ön xətdə yerləşən hərbi hissələrimizə səfəri, şəxsi heyətin məişət şəraiti ilə tanışlığı və hərbi qulluqçularımızı qiymətli hədiyyələrlə mükafatlandırması onların mənəvi-psixoloji hazırlığında əhəmiyyətli rol oynayır.*

Müdafiə nazirinin qiymətli hədiyyə ilə mükafatlandırdığı hərbçilərdən biri də əsgər Malik Rzayevdi. Söhbət zamanı əsgər bildirdi ki, zəhmət çəksən, bəhrəsini görərsən. "Uğur qazanmağın yolu Nizamnamələrin tələblərinə ciddi əməl etməkdən, eyni zamanda, öyrədilən bilikləri mənimsəməkdən, komandirlərin, böyük rəislərin təcrübələrindən yararlanmaqdan keçir. Zəhmətin, qazanılan təcrübənin, əldə edilən biliklərin nəticəsidir ki, bu gün Müdafiə naziri general-polkovnik Zakir Həsənov məni də qiymətli hədiyyə ilə təltif etdi. Cənab nazirin gəlişinə də, adımın təltif olunanların sırasında olmasına da sevindim. Nazirlə canlı ünsiyyətdə olmağın, ondan hədiyyə almağın sevincini sözlə izah etməyə çətinlik çəkirəm. Mənə gözəl duyğular yaşatdı. Əsgərin komandiri, birbaşa və ya bilavasitə böyük rəisləri yanında olanda izaholunmaz şəkildə ruhlanır. Əsas hədiyyə deyil, əsas olan rəhbərlik tərəfindən hərbi qulluqçuya, Azərbaycan əsgərinə verilən dəyərdir. Bundan sonra mənim məsuliyyətim ikiqat artır. Göstərilən etimadı doğrultmaq əsas vəzifə borclarımdan biri olacaq. Hərbçi olmaq həm böyük şərəf, həm də böyük məsuliyyət tələb edir. Valideynlərimizdən, müəllimlərimizdən, zabitlərimizdən mənimsədiklərimizi, oxuduğumuz kitablardan əxz etdiklərimizi xidmətimizdə yaşadırıq".



Malik Rzayev onu da qeyd etdi ki, hər bir gənc müqəddəs hesab edilən möhtəşəm bir yola çıxıb: "Bu yol Vətən sevgisindən keçir, müqəddəs sevgidən qaynaqlanır. Çünki bizim bütün sevgilərimiz Vətənlə bağlıdır. Etiraf edim ki, mən Vətən anlayışının müqəddəsliyini səngərdə düşmənlə üz-üzə dayanandan sonra dərk etməyə başlamışam. Vətən bizik, hamımızıq. Onun dününə də, bu gününə də, sabahına da hamımız cavabdehik."

"Ümid edirəm ki, hərbi xidmətimizi layiqincə, şərəflə başa vuracağıq", - deyə əsgər Malik Rzayev sözünə davam etdi. "Bizim qarşımızda torpaqlarımızı azad etmək missiyası dayanır. Bu ülvi arzuya mütləq qovuşacağıq. Ali Baş Komandanımızın əmri ilə o günün uzaqda olmadığına inanırıq. Tezliklə Azərbaycan Ordusu qalib, Azərbaycan əsgəri isə qalibiyyət marşının sədaları altında Qələbə paradının iştirakçısı olacaq!"

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***12 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***13 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# “Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam”

## C.Naxçıvanski adına Hərbi Liseydə Ulu Öndərin anım tədbiri keçirilib

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin müqəddəs bildiyi və sevə-sevə ziyarət etdiyi ünvanlardan biri də indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey idi. Hətta respublikamıza gələn ən mötəbər qonaqları da bu ünvana aparar, on üç, on dörd yaşlarından əsgər çəkməsi geyinərək böyük orduya gedən yollarda ilk kövrək addımlarını atan gələcəyin zabitlərini onlara göstərərək böyük fərəh hissi keçirərdi.*



Ulu Öndərimiz 48 il öncə - Sovet İttifaqı mövcud olan zaman, sovet xalqları üçün vahid ordu olduğu dönəmdə, İkinci Dünya müharibəsindən sonra Suvorov, Naximov məktəbləri fəaliyyət göstərdiyi bir vaxtda - Azərbaycanda hərbiləşdirilmiş xüsusi orta məktəb yaratmaq qərarı qəbul edəndə Mərkəz bu təşəbbüsü etirazla qarşıladı. Lakin Heydər Əliyev bütün qadağalara, bir-birinin ardınca Bakıya göndərilən təftişçilərin məkrli sərt yoxlamalarına baxmayaraq, qarşısına qoyduğu məqsədə nail oldu.

Respublikamızın gələcəkdə öz müstəqilliyini bərpa edəcəyinə hesablanmış bu ideya irəli sürüləndə, bu işə başlanılanda, o, nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanda milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi.

Heydər Əliyev totalitar rejimin sərt məngənəsində belə bir qeyri-adi qərar qəbul edərkən, təkcə o günləri yox, Azərbaycanın bu gününü düşünürdü. İstəyirdi ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, sovet ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Heydər Əliyev istəyirdi ki, Azərbaycan zabitləri sovet ordusunun tərkibində özlərinə layiqli yer tutsunlar, ali hərbi rütbələrə yüksəlsinlər. Respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün dünyaya yaya bilsinlər.

Zabitlər korpusunun olması, azərbaycanlıların hərbi peşələrə yiyələnməsi, bütün qoşun növlərində təmsil olunması Azərbaycanın gələcəyi üçün zəruri idi. O vaxt bunu dərk etməyənlər, buna adicə bir hadisə, tədbir kimi baxanlar da illər ötdükdən sonra başa düşdülər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur. Şəxsən Heydər Əliyev özü də bunu etiraf edirdi: "Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz müstəqilliyini əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan yaranacaqdır".

Arzu edilən zaman gəldi, Azərbaycan öz müstəqilliyini əldə etdi. Respublikamızın təhlükəsizliyinin, müdafiəsinin təminatçısı olan Azərbaycan Ordusu yarandı.

Bu ordunu isə Ulu Öndərimizin 1971-ci ildə təməlini qoyduğu indiki Hərbi liseyin məzunları olmadan təsəvvür etmək qeyri-mümkündür. Müstəqilliyini yenicə bərpa etmiş respublikamız havadarlarına arxalanan Ermənistan tərəfindən torpaq iddiaları ilə sınağa çəkiləndə, xalqımız müharibəyə təhrik ediləndə, Qarabağ odlara qalananda, günahsız insanlar qanlarına qəltan ediləndə "Heydər Əliyev məktəbi"nin şinelindən çıxan hərbçi oğullar Vətənimizə döndülər, silaha sarıldılar, döyüşlərə yollandılar. Bütün cəbhələrdən "Naxçıvanskilər"in səsi-sorağı gəlirdi.

Onlardan neçəsi "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "general", "admiral" ali hərbi rütbələrinə yüksəldi, neçəsi respublikamızın müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Ulu Öndərimiz böyük fəxarət hissi ilə deyirdi: "Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam... Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam. Ona görə özümü çox xoşbəxt hesab edirəm".

Bu gün ölkəmizin hər yerində, eləcə də dünyanın bir çox ölkələrində Ümummilli Liderimizin xatirəsi ehtiramla yad edilir. Fəxri xiyabandakı müqəddəs məzarını ziyarətə gələnlərin ardı-arası kəsilmir.

Bu gün Ulu Öndərimizin xatirəsi həsrətində olduğu, arzusuna çatdığı ünvanda - Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də silsilə tədbirlərlə yad edilib.



Müdafiə Nazirliyinin rəsmiləri, Hərbi liseyin rəhbərliyi və kursantlar əvvəlcə Heydər Əliyev muzeyində Ulu Öndərin abidəsi önünə güllər düzüb, ekspozisiya ilə tanış olublar. Böyük ömrün xalqa və dövlətimizin tərəqqisinə həsr olunmuş tarixi anlarını əks etdirən fotolar və sənədlər tamaşaçılarda böyük maraq oyadıb. Muzeyin bələdçisi Vüsalə Orucova hər bir eksponat, şəkil və sənədlər barədə ətraflı məlumat verib.

Sonra Ümummilli Liderimizin xatirəsini həmişə uca tutduğu diviziya komandiri Cəmşid Naxçıvanskinin abidəsi də ziyarət olunub. Ulu Öndərimizin təşəbbüsü və rəhbərliyi ilə C.Naxçıvanskinin yubileyinin respublika səviyyəsində qeyd olunması, Bakı şəhərindəki küçələrdən birinə onun adının verilməsi, yaşadığı binaya xatirə lövhəsinin vurulması, Naxçıvan şəhərində ev muzeyinin yaradılması istiqamətində həyata keçirdiyi tədbirlər böyük minnətdarlıqla yada salınıb. Sovet dövründə "qırmızı terror"un qurbanının, "xalq düşməni"nin adının əbədiləşdirilməsi böyük cəsarət tələb edirdi. Nəinki bu kimi işləri görmək, hətta bu barədə təşəbbüslər belə irəli sürmək çox təhlükəli idi.



"Ürəklərdə, xatirələrdə yaşayır Öndər" adlı ədəbi-bədii tədbir başlamazdan öncə xalqımızın dahi oğlunun xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov Heydər Əliyevi müasir Azərbaycanın və mütəşəkkil Azərbaycan Ordusunun qurucusu kimi səciyyələndirib. "Heydər Əliyevin mənalı ömür yolu, xalqa, Vətənə xidmətləri, işıqlı ideyaları heç vaxt tariximizdən silinməyəcək. Bu ideyalar yaşayacaq, xalqımızı, Vətənimizi, Ulu Öndərimizin qurduğu müstəqil dövlətimizi daha xoşbəxt gələcəyə inamla aparacaq", - deyən general-mayor B.Orucov Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və bu liseydə təhsil alan kursantların da dahi rəhbərimizin arzuları olduğunu vurğulayıb.

General-mayor B.Orucov Ulu Öndərlə bağlı xatirələrini danışıb və Naxçıvan Muxtar Respublikasının ərazisindəki hərbi hissələrdə xidmət edərkən Naxçıvan Beynəlxalq Hava Limanında fəxri qarovulun rəisi kimi Heydər Əliyevi qarşıladığı anları ömrünün ən gözəl, unudulmaz çağları kimi yada salıb.

"Dağ vüqarlı Ulu Öndər" mahnısının sədaları altında videoçarx vasitəsilə tamaşaçılar Heydər Əliyevin ömür yoluna nəzər salıblar.

Heydər Əliyev haqqında və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin tarixi barədə bir neçə kitabın müəllifi olan Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. 19 aprel 2003-cü ildə bu ünvanda Ulu Öndərlə görüşdüyünü xatırlayıb və o vaxt araşdırdığı, topladığı arxiv materiallarını, o cümlədən "Mənim Hərbi Liseyim" kitabını dahi rəhbərimizə təqdim etdiyini bildirib. Heydər Əliyevin bu işi yüksək qiymətləndirdiyi minnətdarlıqla xatırlanıb.

Abdulla Qurbaninin Ulu Öndərin xatirəsinə ithaf etdiyi "Əbədi məşəl" rekviyem-poeması əsasında hazırlanmış ədəbi kompozisiya maraqla qarşılanıb.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov bu məktəblə və Ulu Öndərimizlə bağlı xatirələrini danışıb, Hərbi liseyin məzunu olması ilə fəxr etdiyini qeyd edib.

Kursant Rəşadət Həsənov "Babamız" şeirini böyük çoşqu ilə bədii qiraət edib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova atası Ağamir Rəsulovun Ulu Öndərlə bağlı xatirələrini söyləyərək kövrəlib (onun atası vaxtilə unudulmaz Heydər Əliyevin şəxsi aşpazı olub), ailələrinin dahi rəhbərdən daim diqqət və qayğı gördüyünü deyib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti Ulu Öndərin xatirəsinə həsr olunan mahnılardan ibarət ədəbi-musiqili kompozisiya ilə çıxış edib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllim və kursant heyəti Ulu Öndərin ideyalarına bundan sonra da sadiq qalacaqlarına, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərinə, müasir hərbi biliklərə dərindən yiyələnəcəklərinə, layiqli zabit kadrlarının yetişdirilməsində səylərini əsirgəməyəcəklərinə bir daha and içiblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Heydər Əliyev və Azərbaycan əsgəri”

## Gəncə Qarnizonunda vətənpərvərlik tədbiri keçirilib

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ərəfəsində Gəncə Qarnizonunun İdeoloji və Mədəniyyət Mərkəzində "Heydər Əliyev və Azərbaycan əsgəri" adlı vətənpərvərlik tədbiri keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Ulu Öndərin digər sahələrlə yanaşı, Azərbaycanın ordu quruculuğundakı müstəsna xidmətlərindən və dünya şöhrətli şəxsiyyətlə bağlı xatirələrindən danışıb.

Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən işğalı nəticəsində müstəqilliyin ən mühüm atributu olan milli ordu hissələri ləğv olunduğundan və azərbaycanlılar sovet ordusu sıralarında hərbi xidmətə cəlb edildiyindən Azərbaycanın SSRİ tərkibində olduğu illərdə milli zabit korpusunun formalaşmasına, azərbaycanlıların yüksək hərbi



rütbə və vəzifələrə irəli çəkilməsinə qarşı müxtəlif süni maneələr yaradılırdı. Belə bir şəraitdə xalqımızın dahi oğlu Heydər Əliyev uzaqgörənliklə ötən əsrin 70-ci illərində böyük çətinliklərlə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasını qoyub. Beləliklə də, respublikamızın müstəqil gələcəyinə hesablanmış bu təhsil ocağının təsis edilməsi ölkəmizdə hərbçi sənətinə marağın güclənməsinə, zabit kadrlarının yetişdirilməsinə zəmin olub.

Tədbirdə xatırlanıb ki, 1991-ci ildə müstəqilliyini yenicə bərpa etmiş respublikamız mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi vəziyyətlə üzləşmişdi. Ordu quruculuğunda kobud səhvlərə yol verilir, yeni yaranmaqda olan ordu daxili siyasi mübarizəyə cəlb edilir, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələr yaradılırdı. Bu səhvlər isə son nəticədə torpaqlarımızın 20 faizinin işğalı, milyona yaxın soydaşımızın köçkün vəziyyətinə düşməsinə səbəb olmuşdur.

1993-cü ildə unudulmaz Heydər Əliyevin xalqın xahişi və tələbi ilə hakimiyyətə qayıdışından sonra həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoyur, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu yaradılır.

Ulu Öndərimizin timsalında Azərbaycan əsgəri Silahlı Qüvvələrin Ali Baş Komandanını cəbhəyanı bölgədə, döyüş mövqeyində, ön səngərdə görür. Müdrik və qətiyyətli rəhbərdən öyüd-nəsihət, xeyir-dua alan Azərbaycan əsgəri üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış zirehli texnikalarla müqəddəs savaşlara atılır. Bir neçə günün ərzində neçə-neçə yaşayış məntəqəsi düşmən işğalından azad edilir. Dövlətimizin başçısı əsgərlərimizin xidmətlərini yüksək qiymətləndirir, neçə-neçə silahdaşımız "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülür, neçəsi döyüş orden-medalları ilə təltif olunur. Şəhidlərin xatirəsi əziz tutulur, döyüşlərdə sağlamlığını itirənlərə, eləcə də şəhid ailələrinə xüsusi qayğı göstərilir.

Gənc əsgərlərin diqqətinə çatdırılıb ki, Heydər Əliyev hərbi peşəni seçənlərə, taleyini ömürlük Vətənə xidmət peşəsinə həsr edənlərə, Vətənin dar günündə könüllü olaraq silaha sarılan əsgər oğullara həmişə xüsusi rəğbət bəsləyər, onları digər vətəndaşlardan yüksəkdə tutardı. Əbədiyaşar Ali Baş Komandanımız həmişə arzu edərdi ki, Azərbaycan əsgəri qorxmaz, cəsarətli, mərd olsun. Hər hansı bir texnikanın sükanı arxasında əyləşən əsgər bilməlidir ki, onun məharətindən, igidliyindən çox şey asılıdır. Döyüşçü ən ağır məqamda da zəiflik göstərməməlidir. Torpağını müdafiə edən adam üçün ən müqəddəs amal qəhrəmanlıq göstərməkdir. Hər bir əsgər bu amalla yaşamalıdır. Azərbaycan əsgərinin yolu birdir - Vətən, torpaq uğrunda məharətlə döyüşmək, düşmənə layiqli cavab vermək. Heydər Əliyev əmin idi ki, Azərbaycan əsgəri bu yolda son damla qanını belə əsirgəməyəcək. Çünki bunu ondan Vətən, xalq, torpaq gözləyir.

Xatirəsini ehtiramla yad etdiyimiz Ulu Öndərimiz istəyirdi ki, digər hərbi peşələrlə yanaşı, bizim cəsur şahinlərimiz də olsun. Bu şahinlər öz məharətlərini bütün dünyaya göstərsinlər ki, azərbaycanlılar hər işin öhdəsindən bacarıqla gəlməyə qadirdirlər. Azərbaycan xalqı istedadlı xalqdır, onun istedadı hərbi sahədə də ən yüksək səviyyədədir. Heydər Əliyev bu sahədə də istəyinə nail oldu. Çox keçməyəcəkdi ki, Ulu Öndərimiz böyük iftixar hissi ilə deyəcəkdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

"Heydər Əliyev və Azərbaycan əsgəri" mövzusunda keçirilən vətənpərvərlik gecəsində Vətən müdafiəçilərinin bu gün də ölkə rəhbərliyinin, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğu, Heydər Əliyevin siyasi kursunun, ordu quruculuğu ənənələrinin uğurla davam etdirildiyi bildirilib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Bu gün Azərbaycan Ordusu həm döyüş fəaliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır".

Polkovnik-leytenant Loğman Xanlarov hərbi hissənin keçdiyi döyüş yolundan danışaraq çıxışını Ulu Öndərin 2002-ci il sentyabrın 14-də şəxsi heyətlə görüşərkən dediyi "Siz gəncsiniz. Azərbaycanın gələcəyi gənclərə, sizə məxsusdur. Sizin hərbi peşəniz Azərbaycanın bu günü və gələcəyi üçün vacibdir. Ümidvaram ki, Azərbaycan Ordusunun zabit heyəti, komandan heyəti, bütün şəxsi heyəti xalqımızın, dövlətimizin bu tələbləri səviyyəsində olacaqdır" sözləri ilə yekunlaşdırıb.



Gənc əsgərlər kursunu Gəncədəki hərbi hissədə keçmiş, Hərbi and içərək burada Azərbaycan Ordusunun sıralarına daxil olmuş Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov da minnətdarlıqla yad edilib. Qeyd olunub ki, Çingiz də Ulu Öndərimizin görmək istədiyi qorxmaz, cəsarətli, mərd Azərbaycan əsgərlərindən biri idi. Onun da yolu Vətən, torpaq uğrunda məharətlə döyüşmək, düşmənə layiqli cavab vermək idi və Azərbaycan Texniki Universitetinin məzunu olan igid əsgərimiz bunu da etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev respublikamızın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Salman oğlu Qurbanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

Çıxışlardan sonra Bakı Bələdiyyə Teatrı tərəfindən "Çingiz dastanı" adlı ikihissəli mənzum tamaşa nümayiş etdirilib. Tamaşada gənc əsgərin 22 illik qısa, lakin əsrə bərabər ömür yolu, onun son qəhrəmanlıq anı aktyorların ifasında peşəkarlıqla təqdim edilib. Tamaşa boyu əsgər Çingizin qürurla dediyi "Mübariz, qardaşım, inan, bu gecə yeni Mübarizlər doğulacaq", "Komandir, bu gecə öz qanım ilə Çingiz dastanını yazacağam mən", "Qələbə günündə qayıdacağam, ağlama, qəlblərə köçüb gedirəm" ifadələrini gənc əsgərlər ayaq üstə alqışlarla qarşılayıblar.

Tamaşadan sonra əsərin müəllifi Abdulla Qurbani, Əməkdar artistlər Səmayə Sadıxova, Əfqan Soltanov, Aydın Əliyev, Hüsniyyə Mürvətova, Milli Qəhrəman Çingiz Qurbanovun obrazını məharətlə yaradan istedadlı aktyor İlqar Musayev və başqaları gənc əsgərlərə səmimi arzularını bildirib, onları müasir dövlətimizin və ordumuzun qurucusu Heydər Əliyevin ideyalarına bundan sonra da sadiq qalmağa, Vətənə, dövlətə, xalqa şərəflə xidmət etməyə, Ali Baş Komandanın əmrlərinə hər an hazır olmağa səsləyiblər.

Ordu quruculuğu

# “Xidmətimizin mahiyyəti döyüş növbətçiliyidir”

*Tarixən güclü orduya malik olan dövlət güclü dövlət kimi tanınıb. Ordunun gücü silahlanmayla, silahların xarakteri ilə, bu silahları, texnikaları, qurğuları idarə etməyi bacaran hərbi qulluqçuların hərbi bilikləri hansı səviyyədə mənimsəməsi ilə, onların döyüş əzmi ilə, qələbə ruhu ilə müəyyənləşdirilib. Bu tezisə istinadən beynəlxalq analitiklər haqlı olaraq deyirlər ki, Azərbaycan Ordusu güclü ordudur.*







Azərbaycanda dövlətçilik atributlarından biri kimi orduya, ordunun silahlanmasına, maddi-texniki bazasının genişləndirilməsinə, bunların əsasında şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə son illərdə daha böyük diqqət göstərilir ki, bu da dövlətin gücünün, qüdrətinin artması deməkdir. Son illərdə ordunun arsenalına ən müasir döyüş texnikalarının, uçuş aparatlarının, atıcı silahların daxil edilməsi, onların istismar xüsusiyyətlərinin kontingentə operativ öyrədilməsi, irimiqyaslı islahatlar, müxtəlif təyinatlı təlimlər şəxsi heyətin döyüş hazırlığını daha da yüksəldib, döyüş hazırlığını mənəvi-psixoloji hazırlıqla tamamlayıb. 2016-cı ilin Aprel döyüşləri, qazanılan qələbə şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksək olduğunu, bu səviyyənin qüdrətini, bu qüdrətin torpaqları işğaldan azad etməyə qadirliyini təsdiqlədi. İndi Azərbaycan Ordusu dünyada ən güclü ordular sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi bir fikri hər bir azərbaycanlı qürurla yaşayır, yaşadır: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu qürur ordunun mənəvi-psixoloji hazırlığını müəyyənləşdirən amillərdəndir. Bu qürur şəxsi heyətin döyüş əzminə, qələbə ruhuna söykənir. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində yeni hərbi hissələrin inşa edilməsinin də, bunlarla bir sırada şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılmasının da əhəmiyyəti böyükdür.

Ordu quruculuğunun tərkib hissələrindən biri kimi ordunun modernizasiyası və yenidənqurma işləri uğurla davam etdirilir. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə cəbhəboyu zonada yeni inşa edilmiş mühəndis təyinatlı hərbi obyektlərin açılışı oldu. İstifadəyə verilən qərargah mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri ilə təchiz edilib.

Zabit Ceyhun Bağırov bildirdi ki, mühəndis-istehkam hərbi hissələrinin yerinə yetirdiyi vəzifələrə əsasən onların texniki baxımdan təkmilləşdirilməsi və döyüş potensialının artırılması üçün müasir texnikalar alınaraq silahlanmaya daxil edilmişdir...

Zabit onu da dedi ki, şəxsi heyətin hazırlığı üçün nəzərdə tutulan taktiki sinif otaqları, inzibati binalar müvafiq avadanlıqlar və əyani təbliğat vasitələri ilə tam təchiz edilib.

Yeni hərbi hissələrin tikilməsi, yeniləşdirilməsi, əsaslı bərpası, eləcə də yeni hərbi obyektlərin istifadəyə verilməsi mahiyyəti etibarilə ordu quruculuğunun tərkib hissəsidir və şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığını daha da sürətləndirir.



Cəbhəboyu zonada yerləşən hərbi hissənin əsgər və zabitləri mühəndis təyinatlı yeni hərbi obyektlərin inşa edilməsini və istifadəyə verilməsini dövlət başçısının orduya diqqətinin, qayğısının növbəti təzahürü bilir. Zabit Ceyhun Bağırov bu diqqətə, bu qayğıya görə hərbi hissənin şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirərək dedi ki, əsgər və zabitlərimiz bundan sonra da Hərbi Anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edəcək, Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin, yuxarı komandanlığın əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirəcəklər. Hərbi hissəmizin təmayülü, yerinə yetirdiyi vəzifələr müharibə şəraitində olduqca gərəklidir və mahiyyəti döyüş növbətçiliyidir. Əsgərlərimizin hər biri Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa hazırdır...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# “Sevinirəm ki, etimadı doğrulduram”

*"N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsində baş gizir İlyas Qasımovla tanış olduq. Zabit Vahid Rzayev baş gizirin təcrübəsindən, bacarığından, nümunəvi xidmətindən ağız dolusu danışdı: "İlyas bölmənin nümunəvi xidmət edən vətənpərvər oğullarındandır. O, bölmənin sosial təminatını daim diqqətdə saxlayır, vəzifələrinin öhdəsindən uğurla gəlir. Nümunəvi xidməti ilə yanaşı, davranışı və əxlaqi keyfiyyətləri ilə də kollektivin dərin ehtiramını qazanıb".*

Baş gizir İlyas Qasımov uzun illərdir ordu sıralarında xidmət edir. Lerik rayonunda çoxuşaqlı ailədə böyüyən İlyasın beş bacısı, beş qardaşı var. Ailəlikcə hərbçi peşəsinə dərin rəğbət bəslədiklərini bildirdi. Qardaşı Cavid Horadiz əməliyyatlarında iştirak edib, qazi olub. Qardaşı uşaqlarının da, demək olar ki, hamısı müxtəlif qoşun növlərində xidmət edir.

Müxtəlif hərbi hissələrdə layiqli xidmət yolu keçən baş gizir hazırda bu bölmədə də xidmətini uğurla davam etdirir. Bölmənin göz oxşayan təmizliyi, əsgərlərin səliqə-sahmanı onun bacarığından, məsuliyyətindən və geniş təcrübəyə malik olmasından xəbər verir.

Baş gizir söhbətində dedi ki, hər səhər şəxsi heyətə sıra baxışı keçirir və onların üst-başlarının təmiz və səliqəli olmasını diqqətdə saxlayır. Həmçinin əsgərlərin vaxtlı-vaxtında qidalanmasına, hamama getməsinə, gigiyenik qaydalara əməl etməsinə, tibbi müayinədən keçməsinə ciddi nəzarət etdiyini bildirdi.

"Bu peşəni öz daxili həvəsim və istəyimlə seçmişəm. Harada xidmət etmişəmsə, vəzifələrimə məsuliyyətlə yanaşmışam. Gördüyüm işdən zövq almışam, qürur duymuşam. Yalnız bir amalım olub - ordumuzun adına layiqli xidmət etmək, mənə göstərilən etimadı doğrultmaq. Bu amalıma çatmaq üçün də üstümə düşən vəzifələrin öhdəsindən hər zaman layiqincə gəlməyə can atmışam. Çünki mən şərəfli peşə sahibiyəm. Hər zaman fəxr etdiyimiz qüdrətli Azərbaycan Ordusunun hərbçisiyəm. Bu ada layiq olmağı, nümunəvi xidmət etməyi özümə mənəvi borc bilmişəm. Bu gün çox sevinirəm ki, komandirlərimin etimadını doğruldur am", - baş gizir İ.Qasımov dedi.



Söhbətinə davam edən İlyas bölmənin təminatından da danışdı. Bildirdi ki, həm maddi-texniki təminat, həm də sosial-məişət şəraiti yüksək səviyyədədir. "Bölməmizin bütün təminatları yüksəkdir. Əsgərlərin geyimləri, yataq dəstləri, əl-üz dəsmalları hər həftə dəyişilir. Hər gün keçirilən baxış zamanı ehtiyac duyduqları ləvazimatlarla təmin olunurlar. Uzun illərdir ordu sıralarında xidmət edən biri kimi vurğulamaq istəyirəm ki, bu gün dövlət səviyyəsində ordumuza diqqət çox yüksəkdir. Bu da şəxsi heyətdə ruh yüksəkliyi yaradır."

Danılmaz faktdır ki, regionun ən güclü ordusu olan Azərbaycan Ordusunun gücü və qüdrəti şəxsi heyətinin vətənpərvərliyindən, nümunəvi xidmətindən, nizam-intizamından bilavasitə asılıdır. İlyas kimi ürəyində sonsuz Vətən sevgisi ilə xidmət edən, seçdiyi peşə ilə qürurlanan mərd oğulları tanıdıqca, bir daha əmin olursan ki, ordumuz Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hər an hazır və qadirdir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Şəhid əsgər yad edilib, qazi əsgərə döyüş medalı təqdim olunub



*Əsgər olmaq böyük şərəfdir. Əsgər Vətən əmanətidir. Qədirbilən xalqımız və dövlətimiz öz əsgərinə həmişə xüsusi önəm verib, onu digər vətəndaşlardan yüksəkdə tutub. Əsgər adına nəğmələr, dastanlar qoşulub, haqqında kitablar yazılıb, filmlər çəkilib, şərəfinə möhtəşəm abidələr ucaldılıb. Hər yerdə, hər məclisdə əsgər adı hörmətlə çəkilib, əsgər ailəsinə ehtiram göstərilib. Əsgərlərimiz isə xalqın və dövlətin bu isti münasibətindən daha da ruhlanaraq göstərilən böyük etimadı Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını, üzərinə düşən vəzifələri ləyaqətlə, şərəflə, vicdanla yerinə yetirməyə çalışıblar.*

Hər bir Azərbaycan əsgəri yaxşı bilir ki, o öz doğma torpağını, öz yurd-yuvasını, öz xalqını, öz ata-anasını, doğmalarını, xalqımızın əsrlərdən bəri yaratdığı mədəniyyəti qoruyur. Ona Vətənin, sərhədlərimizin müdafiəsi kimi müqəddəs bir vəzifə etibar edilib.

Hər bir əsgər yaxşı başa düşür ki, ordu xeyriyyə müəssisəsi deyil ki, orada rahatlıq tapasan. Ordunun çətinlikləri, qanlı-qadalı, heç də hamar olmayan yolları, ağrısı-acısı, gedər-gəlməz səfərləri var. Əsas məsələ bu keşməkeşli yollarda büdrəməmək, qələbəyə inam hissini itirməmək, hərbin çətin yollarında Vətən naminə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməkdir.

Azərbaycan əsgəri təkcə silah, texnika ilə deyil, həm də xalqımızın böyük məhəbbəti, sevgisi ilə silahlanır. Onu cəbhədən-cəbhəyə, qələbədən-qələbəyə aparan xalqın mənəvi dəstəyidir. Arxasında böyük bir xalqın durduğunu, ona ümid bəslənildiyini, güvənildiyini hiss edən əsgər daha da güclüdür, daha da qüvvətlidir, daha da yenilməzdir.



Gənclərimiz vaxtı gələndə böyük həvəslə həqiqi hərbi xidmətə yollanır, valideynlər onları şadyanalıqla əsgərliyə yola salırlar. Həm əsgərlərimiz, həm də onların valideynləri yaxşı bilirlər ki, əsgərlik dövrü hər bir gənci möhkəmləndirir, cəsarətləndirir, onu daha da dözümlü edir, bütün çətinliklərə dözməyə öyrədir. Əbəs yerə deməyiblər ki, əsgərlik kişilik məktəbidir.

Əsgəri güllə öldürməz, müharibədə sağlamlığını itirən döyüşçünü yaraları göynətməz, şəhid valideynlərini övlad itkisi yandırmaz. Onları yalnız laqeydlik, unutqanlıq öldürər, göynədər, yandırar. Bu gün müstəqil respublikamızda əsgərə də, müharibədə sağlamlığını itirən döyüşçüyə də, şəhid valideynlərinə də münasibət tamamilə bambaşqadır. Onların problem və qayğıları dövlət səviyyəsində ardıcıl olaraq öz müsbət həllini tapır.

Ulu öndər Heydər Əliyevin vaxtilə dediyi "Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır. Ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifələrimiz kimi dərk etməliyik" fikirləri bu gün də aktualdır və Ali Baş Komandan İlham Əliyevin prezident kimi fəaliyyətində də prioritetdir. Ordumuzun gücü isə onun sıralarındakı əsgərlərin peşəkarlığından, döyüş və mənəvi-psixoloji hazırlığının, xüsusilə də vətənpərvərlik hissinin yüksək olmasından çox asılıdır.

Bütün bu məsələlər barədə hərbi birlikdə keçirilən növbəti vətənpərvərlik tədbirində ətraflı söhbət açılıb.

Müdafiə Nazirliyi və Bakı Bələdiyyə Teatrının birgə təşkilatçılığı ilə reallaşan "Əsgər şöhrəti gecəsi"ndə şəhid Milli Qəhrəman Çingiz Qurbanovun xatirəsi ehtiramla yad edilib və Azərbaycan Ordusunun ilk döyüşçülərindən olan, Çingizlə eyni soyadı daşıyan qazi əsgər İsmayıl Qurbanova isə döyüş medalı təqdim olunub. Tədbir iştirakçıları bir daha şahidlik ediblər ki, həqiqətən də, heç kim unudulmur, heç nə yaddan çıxmır. Əsgər ömrü şərəflidir, əsgər ölməzdir, əsgər unudulmazdır, əsgər adı, əsgər şöhrəti tariximizdən silinməzdir və əsgər hər birimizdən Allaha bir köynək daha yaxındır.

Tədbir iştirakçılarını salamlayan general-mayor Xəqani Cəbrayılov Azərbaycan əsgərinin şücaətindən, rəşadətindən danışıb. Torpaqlarımızı zəbt edərək varımızı, dövlətimizi talamaq məqsədilə ölkəmizə qoşun yeridən yadellilərin qarşısına mərdanə çıxan oğulların dönməzliyindən, əfsanəyə çevrilmiş qəhrəmanlıqlarından söhbət açılıb. Keçən əsrin əvvəllərində şəhidlik geyərək daşnak-bolşeviklərə qarşı mərdliklə vuruşan, İkinci Cahan savaşında Qafqaz dağlarının ətəklərindən Berlinədək şanlı döyüş yolu keçən ata-babalarımız yad edilib, Birinci Qarabağ müharibəsinin döyüş meydanlarında əcdadların qəhrəmanlıq ənənələrini davam etdirən, şəhidlik zirvəsinə ucalan, eləcə də 2016-cı ilin Aprel, 2018-ci ilin isə May döyüş əməliyyatları zamanı düşmən təxribatlarının qarşısının alınmasında, bir çox strateji yüksəkliklərin ələ keçirilərək min hektarlarla ərazilərin nəzarətə götürülməsində müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını paytaxt Bakının Azadlıq meydanında keçirilən möhtəşəm hərbi paradlara gətirərək nümayiş etdirən ordumuzun mübariz əsgərlərinin şəninə xoş sözlər deyilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Hər bir peşə şərəflidir. Ancaq Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir" fikirləri ilə çıxışına başlayan Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani "Ədəbiyyatda və incəsənətdə qəhrəman əsgər obrazı" mövzusunda geniş məruzə edib. Öz əsərlərində qəhrəman əsgər obrazı yaradan və onlara ümumxalq sevgisi qazandıran, əbədiyaşar ömür bəxş edən şair və yazıçılarımızın, rəssam və heykəltaraşlarımızın, bəstəkarlarımızın ən gözəl əsərləri nümunə göstərilib.

Qeyd olunub ki, bu gün də ədəbiyyat və incəsənətimizdə ordu mövzusu, əsgər həyatının tərənnümü daim yaradıcı insanların diqqət mərkəzindədir. Azərbaycan əsgərinin şərəfinə neçə-neçə vətənpərvərlik mahnıları, hərbi marşlar, sənədli və bədii filmlər, rəngkarlıq əsərləri, heykəltaraşlıq nümunələri yaradılıb. Bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə ucaldılan abidə bunun bariz nümunəsidir.

Məlumat üçün bildirilib ki, ordumuzun şəxsi heyətinin və xalqımızın haqlı olaraq "Döyüşən teatr" kimi tanıdığı Bakı Bələdiyyə Teatrı bu gün hərbi qulluqçuların qarşısında "Çingiz dastanı" ikihissəli mənzum tamaşa ilə çıxış edəcək. Abdulla Qurbaninin bu əsərinin baş qəhrəmanı da Azərbaycan Ordusunun əsgəridir. Bu əsgər isə hamımızın yaxşı tanıdığı, müasirimiz olan Azərbaycanın Milli Qəhrəmanı şəhid Çingiz Qurbanovdur.

Bakı Bələdiyyə Teatrının tamaşası tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Hər bir əsgər Çingiz Qurbanovun qəhrəmanlığını döyüş meydanında təkrarlamağa hər an hazır olduğunu bildirib. Çingizin ata və anasının obrazlarını yaradan Əməkdar artistlər Səmayə Sadıxova və Əfqan Soltanov tamaşadan sonra çıxış edərək, nəinki səhnədə, hətta döyüşdə də öz doğma övladlarını belə şəhid verəydilər, bugünkü kimi qürur hissi keçirəcəkdilər, deyiblər. Çingiz 22 yaşında şəhidlik zirvəsinə ucalıb. İllər ötəcək, əsrlər keçəcək, lakin o, ölməz bir qəhrəman kimi xatirələrdə, ürəklərdə əbədi yaşayacaqdır. Əsgər ölmür, əsgər unudulmur.

Sonra Azərbaycan Ordusunun ilk döyüşçülərindən biri, ehtiyatda olan gizir İsmayıl Cəlal oğlu Qurbanovun da tamaşaçılar arasında olduğu bildirilib. Nəzərə çatdırılıb ki, o, könüllü olaraq əsgər gedəndə çox gənc idi. Atası Cəlal kişi oğlunu çağırış məntəqəsindən yola salmışdı. İsmayıl əvvəl Bakı ətrafındakı hərbi hissələrdən birində gənc əsgərlər kursunu keçmiş və Qarabağ uğrunda döyüşlərə yollanmışdı. Tank əleyhinə divizyonda xidmət edirdi. Əsgər Qurbanov komandiri olduğu heyət üzvləri ilə Ağdam, Ağdərə uğrunda döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstərmişdir. Düşmənin 4 tankını, 1 PDM-ni məhv etmişdi. O vaxtlar dövlət mükafatına təqdim edilsə də, bu mükafat yalnız uzun illər keçdikdən sonra bu gün sahibinə təqdim ediləcək. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi Birinci Qarabağ müharibəsinin əvvəllərində döyüşlərdə iştirak etmiş və fərqlənmiş hərbi qulluqçuların fəaliyyətlərini yenidən araşdırmış və vaxtilə orden-medallara təqdim edilən keçmiş döyüşçülərdən bir qrupu Prezidentin müvafiq sərəncamı ilə təltif edilmişlər. Onlardan biri də Şəmkir rayonunun Çinarlı qəsəbəsindən olan müharibə veteranı İsmayıl Qurbanovdur.

Bildirilib ki, müharibə veteranı İsmayıl Qurbanovun atası Cəlal kişi bu gün həyatda yoxdur. O, artıq haqq dünyasındadır. Lakin keçmiş döyüşçü bu gün mükafatı almağa atasının adını daşıyan, əsgərliyini yenicə başa vurmuş oğlu Cəlalla gəlib.

Polkovnik Abdulla Qurbani Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin



qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçusu gizir İsmayıl Cəlal oğlu Qurbanovun "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını diqqətə çatdırdıqdan sonra general-mayor Xəqani Cəbrayılov müharibə veteranını yüksək mükafata layiq görülməsi münasibətilə təbrik edib və alqışlar altında medalı onun sinəsinə sancıb.

Ehtiyatda olan gizir "Azərbaycan Respublikasına xidmət edirəm" deyərək göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını və Ali Baş Komandanın hər bir əmrinə bu gün oğlu ilə birgə hazır olduğunu bildirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Bakı Bələdiyyə Teatrının cəbhəyanı bölgələrə səfəri başa çatıb

*Müdafiə Nazirliyinin dəstəyi ilə Bakı Bələdiyyə Teatrının cəbhəyanı bölgələrə səfəri başa çatıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində teatrın yaradıcı kollektivi Beyləqan, Füzuli rayonlarında, eləcə də Gəncə və Şəmkir qarnizonlarında hərbi hissələrin şəxsi heyəti, şəhid ailələrinin üzvləri, müharibə veteranları və ictimaiyyət nümayəndələri qarşısında Azərbaycanın Milli Qəhrəmanı şəhid əsgər Çingiz Qurbanovun xatirəsinə ithaf olunan "Çingiz dastanı" tamaşasını nümayiş etdirib.

Əsərin müəllifi və tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidir.

Əsas rolları istedadlı teatr və kino aktyoru İlqar Musayev, Əməkdar artistlərdən Səmayə Sadıxova, Əfqan Soltanov, Aydın Əliyev, Hüsniyyə Mürvətova, aktyorlardan İsmayıl Atakişiyev, Asif Rəhimov, Əzizə Həşimova, Toğrul Rza və başqaları ifa ediblər.

Kütləvi səhnələrdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti yer alıb.

Yüzlərlə tamaşaçı "Şəhidlər dastanı"nı böyük maraqla izləyib.

Azərbaycan Ordusunun şəxsi heyətinə mədəni xidmət göstərilməsində, döyüş ruhu və vətənpərvərlik hissinin yüksəldilməsində xidmətlərinə görə Bakı Bələdiyyə Teatrının kollektivi fəxri fərmanla təltif olunub.

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş voleybol turniri

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli qəhrəmanlarının xatirəsi həmişə əziz tutulur. Mütəmadi olaraq onların xatirəsinə həsr olunmuş idman birincilikləri keçirilir. Belə yarışlar gələcəyin zabiti olacaq kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərir.*



Hərbi liseydə Mətləb Quliyevin xatirəsinə həsr olunmuş bölüklərarası ənənəvi voleybol turniri keçirildi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər. Hərbi liseyin fiziki hazırlıq fənn bölməsinin rəisi mayor Rəşad Kazımov qəhrəmanın həyat və döyüş yolundan söz açdı:

- Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyev 1959-cu il yanvarın 9-da Beyləqan rayonunda dünyaya göz açıb. İbtidai təhsilini 3 nömrəli pambıqçılıq sovxozundakı orta məktəbdə alıb. Sonra ailələri Sumqayıt şəhərinə köçüb. Mətləb səkkizinci sinfə qədər 13 nömrəli məktəbdə alıb. Sonra hərbçi olmaq həvəsi onu Cəmşid Naxçıvanski adına Hərbi liseyə gətirib. Təhsilini bitirəndən sonra o mülki ixtisas seçib. Müxtəlif təşkilatlarda çalışıb. Əsgəri xidmətini başa vurandan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1985-ci ildə "leytenant" rütbəsi ilə ali məktəbi bitirərək Sumqayıt şəhərindəki 3 nömrəli orta məktəbdə hərbi hazırlıq müəllimi işləməyə başlayıb.

1992-ci ildə xidmətə çağırılan Mətləb Quliyev təcrübəli zabit kimi Daxili Qoşunlarda gənc əsgərlərə təlim keçib, onlara döyüş qaydalarını öyrədib. 1992-ci il avqustun 31-də Ağdam istiqamətinə göndərilib. Həmin günlərdə ermənilər yaşayış məntəqələrini, strateji əhəmiyyətli yüksəklikləri ələ keçirməyə çalışırdılar. Gənc zabit pulemyotun arxasına keçərək düşmən üzərinə güllə yağdırırdı. Daşnaklar onun pulemyotunun darağında güllənin qurtardığını hiss edərək, bir neçə istiqamətdən hücuma keçirlər. Düşmənin onlara atdığı güllələr kapitan yoldaşının həyatına son qoyur. Mətləb isə qısa vaxt ərzində pulemyotun darağını dəyişərək yenə də atəş açır. Əsgərlərini xilas edir, özü isə qəhrəmancasına həlak olur.

Döyüşlərdə göstərdiyi igidliyə və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bu gün Sumqayıt şəhərindəki 3 nömrəli orta məktəb Mətləb Quliyevin adını daşıyır. Təhsil ocağının həyətində onun büstü qoyulub. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub. Biz qəhrəmanlığı, igidliyi Mətləb kimi oğullardan öyrənməliyik.



Çıxışlar başa çatandan sonra voleybol turnirinə start verildi. Kursantlar meydanda yerlərini tutandan sonra hakimin fiti eşidildi. Yarış başlandı. Kursantlar komandalarını irəli çıxarmaq üçün cəld hərəkətlə irəli atıldılar.

Oyunun gedişindən hiss olunurdu ki, kursantlar voleybol birinciliyinə çox ciddi hazırlaşıblar. Yarış gərgin mübarizə şəraitində keçəcək.

Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin xatirəsinə həsr olunmuş bölüklərarası voleybol turnirinin final mərhələsinə 1-ci kursun 4-cü bölüyü və 2-ci kursun 1-ci bölüyünün kursantları çıxdılar.

Birinciliyin final mərhələsi maraqlı anlarla yadda qaldı. Gərgin mübarizə şəraitində keçən birincilik 2-ci kursun 1-ci bölüyünün qələbəsi ilə başa çatdı. Beləliklə, Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin xatirəsinə həsr olunmuş voleybol üzrə bölüklərarası lisey birinciliyinin qalibi 2-ci kursun 1-ci bölüyünün kursantları oldu.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Rusiyanın Ural lak-boya istehsalı zavodunda yanğın baş verib



Rusiyanın Sverdlovsk vilayətinin Yekaterinburq şəhərindəki Ural lak-boya istehsalı zavodunda yanğın baş verib.

800 kvadratmetr sahəni əhatə edən yanğın nəticəsində zavodun bir əməkdaşı xəsarət alıb. Yağın zamanı içərisində boya olan çəlləklərdə partlayış baş verib. Hadisə yerində 83 yanğınsöndürən texnika və Rusiya Fövqəladə Hallar Nazirliyinin əməkdaşları işləyirlər.

### Türkiyədə PKK terror təşkilatına kömək etməkdə şübhəli bilinən 17 nəfər saxlanılıb



Türkiyənin Diyarbəkir şəhərində həyata keçirilən antiterror əməliyyatı nəticəsində PKK terror təşkilatına kömək etməkdə şübhəli bilinən 17 nəfər saxlanılıb.

Jandarm qüvvələrinin əməkdaşları tərəfindən saxlanılan şəxslərin terror təşkilatına üzvlər toplamaqda, terrorçulara maddi yardım göstərməkdə və saxta şəxsiyyət vəsiqələri hazırlamaqda ittiham olunurlar.

### "Admiral Kuznetsov" gəmisində baş vermiş yanğın söndürülüb



"Admiral Kuznetsov" aviasiya daşıyan kreyserində baş vermiş yanğın tamamilə söndürülüb.

Hadisə nəticəsində bir hərbçi həlak olub, 12 nəfər xəsarət alıb. Bundan başqa, iki nəfərin taleyi hələlik məlum deyil.

Rusiya Hərbi Dəniz Qüvvələrinə məxsus olan və Murmanskda təmirə dayanmış gəmidə yanğın dekabrın 12-də səhər saatlarında başlayıb. Hadisənin qaynaq işləri zamanı qığılcımın yerə tökülmüş mazutun üstünə düşməsi nəticəsində baş verdiyi ehtimal olunur.

Hadisə ilə bağlı cinayət işi başlanıb.

### Əfqanıstanda mina partlayışı nəticəsində 10 nəfər ölüb



Əfqanıstanın şərqində yerləşən Qəzni əyalətində yol kənarına quraşdırılmış minanın partlaması nəticəsində azı 10 nəfər həlak olub, altı nəfər isə yaralanıb.

İnsident yerli vaxtla 13 dekabr saat 10:30-da qeydə alınıb. Əfqanıstan Daxili İşlər Nazirliyinin mətbuat katibinin müavini Mərva Amininin sözlərinə görə, çox sayda mülki şəxsin olduğu avtobus Caqato və Di-Yak rayonları arasındakı torpaq yolda əldəqayırma minaya düşüb. Həlak olanların arasında dörd qadın və bir uşaq var.

Ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hələlik hücumun məsuliyyətini üzərinə götürməyib.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Asif Məhəmməd oğluna 2001-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Orxan HÜSEYNLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1023 Nüsxə 3950 |